

Azər Rəşid

## ƏLLƏR QUCAĞIN ÜSTƏ

Yollar yaxın gələrdi,
Ayaqlar tez gedərdi.
Susmağı incidərdi,
İndi nə yol, nə səs var.

Bir-birinə dolaşır,
Əllər qucağın üstə.
Xatirələr alışır,
Yanır ocağın üstə.

Şəhər töküb üzünə,
Yenə qara saçını.
Cəza kəsib özünə,
Qurub dar ağacını.

## İMZAN ÜRƏYİMDƏ

Ürəyimə qol çəkib - öz imzanı atmısan,
Üzümdə izi var baxışlarının.
Məni elə sevib, elə atmısan...
Dilindən düşmürsən göz yaşlarımın.

Elə bil hardasa, qonaq olmuşuq,
İndi xatirəsi ovudur bizi.
Niyə özümüzə qınaq olmuşuq?
Niyə incidirik bir-birimizi?

## YATIM GECƏNİ

Bezib bu həsrətin, odun əlindən,
Gəlim ürəyində yatım gecəni.
Nazını qısqanım yad baxışlara,
Üzünə, gözünə qatım gecəni.

Yatım, ayılmayım, qalan ömrümü,
İllərdə sızlayan talan ömrümü.
Röyalar qoynunda dolan ömrümü,
Sən Allah, kamıma çatım gecəni.

Nolar, bircə dəfə gəlim gecənə,
Yuxumu çiçəktək dərim gecənə,
Səsimi laylatək sərim gecənə,
Unudum hicranı, atım gecəni.

## BULUDDA BAR HAVASI VAR

Dil-dodaq ağa bürünüb,
Sözlərdə qar havası var.
Arzularımı asmışam,
Tabut, məzar havası var.

Lalımaqdır işim-peşəm,
Çətin yolumu dəyişəm.
Göyün budağın əymişəm,
Buludda bar havası var.

Allah, göz düşdü, dərdi nə?
Gözlər bilər, göz dərdi nə!
Elə düşmüşəm dərdinə,
Könlümdə yar havası var.

## BAXMA

Cansız bir bədənəm indi,
Aldığım nəfəsə baxma.
Uydurduğum arzulara,
Düşdüyüm həvəsə baxma.

Canı həsrət sıxıb gedib.
İldırımlar çaxıb gedib.
Ürək çoxdan çıxıb gedib,
Boş qalmış qəfəsə baxma.

## ÖMÜR BUMU?

Sevgin ürəyimdə bir kitab kimi,
Hər vərəqi həsrətindir - oxunmur...
Səndən sonra, sənsiz qalan əllərim,
Bu dünyanın,
Bir gülünə, çiçəyinə toxunmur...

Getməyə yolum yox -
ölməyə yerim.
Gözüm yol axtarır -
ürəyim məzar.
Kim açıb oxusa -
ömür səhifəmi,
Kədərimdə itər -
dərdimdə azar.

## AĞRISI GÖZDƏN TÖKÜLÜR

Bu yara qansız yaradı,
Ağrısı gözdən tökülür.
Payızın yarpağı kimi,
Saralır, sözdən tökülür.

Gülüş dodaqdan inciyir,
İllər sınaqdan inciyir,
Sevinc qınaqdan inciyir,
Utanır, üzdən tökülür.

Yollar soyuq, dona bilər,
Körpüləri sına bilər.
Vallah, ürək yana bilər,
Həsrəti közdən tökülür.

## ÖLƏSİ VAR

Ömür yolum, hər ilində,
Neçə iblis tələsi var.
Ürəyimə hicran çöküb,
Gör nə boyda şələsi var?

Keçmişimiz min xatirə,
Göz ağlayır gilə-gilə.
Əlimi tutmağa gələ,
Bilə onsuz öləsi var.

Aşiqəm, de nədir cəzam?
Onsuz kimdən, nədən yazam?
Taleyimi hara yozam?
Eləsi var, beləsi var.

## DONMAĞA QIŞ GƏZİRƏM

Gözümə od toxunub,
Soyuq baxış gəzirəm.
Həsrəti sinəm üstə,
İlmə, naxış gəzirəm.

Bu yolda tək qalmışam,
Demək, ayrı canmışam.
Onsuz elə yanmışam,
Donmağa qış gəzirəm.

## BU DÜNYANIN

Mən bir ömür yaşamadım,
Gözlərində bu dünyanın.
Həsrət oldum, kədər oldum,
Sözlərində bu dünyanın.

Gecələr həmdəmim oldu,
Sevincim də qəmim oldu.
Mənlə yanan kimim oldu?
Közlərində bu dünyanın.

"Saç ağarır, əllər əsir",
Baş açmıram, Allah, nə sirr?!
Məcnun kimi qaldım yesir,
Düzlərində bu dünyanın.

## DÖZÜMÜ İTİRMİŞƏM

Elə baxma üzümə,
Dözümü itirmişəm.
Nə danışım?! Bilmirəm,
Sözümü itirmişəm.

Ay ömrümün bəzəyi,
Həyatımın mələyi,
Qoxlayıb sən çiçəyi,
Özümü itirmişəm.

Buraxma əllərimi,
Axı yad əllərimi?
Ağlayıb illərimi,
Gözümü itirmişəm.

## BİR LAÇINIM VAR İDİ...

Bir sinəsi yaralı...
Qəlbi yanan olmuşam.
Gözümə qış toxunub,
Qarda donan olmuşam.

Qayaları sar idi,
Quzeyləri tar idi,
Bir Laçınım var idi,
Ondan nihan olmuşam.

Cığırları dolandı,
Küçə-küçə talandı.
Ellər oda qalandı,
Allah, viran olmuşam!

## DAŞA DÖNDÜ

Arzularım üşüdü,
Baharda qışa döndü.
Ürək döyən qapılar,
Bağlandı, daşa döndü.

Əlim üzündən uzaq,
Gözüm gözündən uzaq,
Allah, özündən uzaq,
Sevincim yasa döndü.